**ƏLİCAN SULTANSOY**
**BDU**
**Zahid Xəlil küç**
**elican@mail.ru**

# ƏSASI VAHİD OLAN VAHİDLƏŞMƏYƏ BİLMİR

Məqalədə fərdlər, insanlar və bunun timsalında mxtəlif tipli cəmiyyətlər arasında mövcud doğmalıq aspektlərinə nəzər salınıb: insanlar arasında düşüncə, xarakter vəhdəti (dostluq); genetik aidlik ortamı (qohumluq); sərhəd və mikrozona birliyi – məhəllə, küçə uyarlığı (qonşuluq) komponentləri üzrə doğmalıq faktorlarının təsnifatına rast gəlinir. Cəmiyyətlərarası münasibətlərdə uyğun məntiqi ardıcıllığa rəğmən, düşüncə xarakter vəhdəti (əsasən, ictimai təfəkkür tərzi, din) yenə də başlıca, vacib doğmalıq məqamı kimi işıqlandırılır (insan və cəniyyət, ilk növbədə, idrak potensialı ilə fərqləndiyi üçün). Genetik münasiblik (xalq birliyi, kök, qan-süd uyarlığı) və qonşuluq (sərhəd və makrozona vahidliyi – qitə, materik, ada və digərlərin uyarlığı) detalları öz xarakterik əhəmiyyəti ilə səciyyələndirilib.

Daha çox başlıca funksiyanallığı ilə diqqət çəkən fikir, ideya, xarakter münasibliyi ayrı-ayrı elmlərin timsalında təqdim olunmaqla yanaşı, vahid filoloji hadisə kimi irəli çəkilib.

Aksiomatik çalarda cəmiyyətin mütərəqqi simasını realizə edən bu və ya digər elmin tədris sferasında müstəsna incəliklərə toxunuşla bərabər; müvafiq, həm də yaradıcı mütəxəssis yanaşımı və bunun aparıcı roluna önəm verilib. Beləliklə, vahid insan vəya cəmiyyətə məxsus tam idraki, elmi səciyyədən qaynaqlanan incələmə bu faktın müəyyən detalında sonunclanmaq zərurəti ilə uzlaşdırılır.

**Açar sözlər:** doğmalıq aspekti, ictimai təfəkkür, komponent, tipik cəmiyyət, reallıq, vəhdət, mənəvilik

Fərdlər və ya insanlar arasında doğmalıq hadisəsi 3 aspektdən özünü nümayiş etdirir: Qohumluq (genetik ortamda, qan-süd birliyi fonunda), qonşuluq (sərhəd və makrozona ortaqlığı yönündən, məs: eyni küçə və məhəllə anlayışları sözügedən məqam üçün makrozona miqyasında qəbul oluna bilər) və dostluq (ideya, fikir və xarakter uyarlığına rəğmən) (1, 34).

Müqayisədə görmək olar ki, hər hansı faktorla ikitərəfli əlaqə ünsürü üçtərəfli əlaqə səciyyəsindən nisbətən önəmsiz, birtərəfli əlaqə reallığından isə vacib əhəmiyyət daşıyır. Məsələn: qarşı tərəflərdən biri yalnız qonşum; digəri isə qonşum olmaqla bərabər, həm də fikir ortağımdırsa (həmfikrim, dostumdursa); onda seçim əsnasında 2-ci tərəflə yaxınlıq daha məntiqi məqam kimi gözə dəyir. Qeyd edək ki, doğmalıq komponentlərini ayrı-ayrılıqda bir-birinə qarşı qoysaq; fikir, düşüncə müttəfiqliyi daha şanslı göstərici kimi diqqət çəkəcək. Çünki insan ilk növbədə şüur anlamında özünü isbat və təmsil etmək fitrətini daşıyır.

Bununla belə, sözügedən üçlü aspektin cəm halda belə qarşısını kəsəcək yeganə qüvvə subyektiv maraq, mənafe reallığıdır. Belə ki, kimsə həm qohumu; həm dostu, həmfikri; həm də qonşusu olan birinə qarşı maddi və ya mənəvi xislətli mənafeyinə rəğmən mövqe sərgiləyə bilər(5, 280).

Üçlü faktora əsaslanan doğmalıq səciyyəsi (eləcə də bu üçlüyə qarşı çıxan maraq, mənafe reallığı) müxtəlif cəmiyyətlərin aurasında, təbiətində də həlledici təsir bağışlayır. (6, 34). Məsələn: dövlətçilik və bunun timsalında təşkilatlanma, qurum və s. aspektlərdən yanaşdığımız halda həmin doğmalaşma detallarının vacib rolundan yan keçə bilmirik. Fərqli olaraq, bu konteksdə subyektiv düşüncə, fikir ortaqlığı, dostluq çərçivəsini daha geniş, daha kütləvi

mənada ictimai təfəkkür, münasibət tərzi olan din anlayışı əvəzləyir. Qan və süd ortaqlığına, genetik vəhdətə əsaslanan qohumluq sferası isə xalq səciyyəsində intişar tapır: türklər (qazaxlar, azərbaycanlılar...), slavyanlar (ruslar, polyaklar...) və s. Nəhayət, qonşuluq səciyyəsi cəmiyyət sferasında sərhəd ortaqlığı baxımdan uyğun, lakin makrozona aidliyi fonundan bir qədər fərqli məna sərgiləyir:məhəllə, küçə arealından qitə, ada, materik və s. həddə yüksəlir. (Asiya, Şərq, Qafqaz; eləcə də hissəvi şəkildə Cənubi Qafqaz, Uzaq Şərq, Ön Asiya ölkələri və s.)

İstənilən qurum, dövlət və bu aspektdən təşkilatlanma ərazi (qonşuluq, sərhəd və makrozona vahidliyi), din və xalq vəhdətinə oturuşaraq digər cəmiyyət tipi üçün bu və ya digər dərəcədə doğmalıq xüsusiyyətinə yiyələnir. Məs: din, həm də ərazi ortaqlığı bu faktlardan yalnız birinə qarşı daha üstün mahiyyətə köklənir. Lakin bu sferada da subyektiv maraq, mənafe təzahürü üçlü yanaşmanın birgə rolunu belə sıradan çıxarmaq əzmindədir. Tutaq ki, bir coğrafi areala məxsus eyni kökdən, xalqdan törəyən iki dövlətdən biri hərbi, iqtisadi və s. cəhətdən nisbətən zəif digər dövlətə təzyiq göstərir. Bu zaman sözügedən üçlü yanaşma üzrə qeyri-aidiyyatlı (hər hansı doğmalıq aspektində özünü göstərməyən, yad) dövlət strateji maraq və mövqeyindən asılı olaraq, tərəflərdən hər hansı birinin müdafiəçisi olacaq

Subyektlər-insanlar arasında olduğu kimi istənilən cəmiyyət, təşkilat, qurum, dövlətlərarası münasibətlərdə də doğmalıq ünsürlərindən həmfikirlik, ideoloji yaxınlıq, dostluq kimi ifadələrin makrovariantı-din, ictimai təfəkkür, yanaşma tərzi kimi digər iki uyarlıqla münasibətdə daha həssas təsir bağışlayır. Burada da alternativ səbəb düşüncə, idrak amilinin insan və onun güzgü əksi olan cəmiyyət üçün özünüifadə, təsdiq, həmçinin təqdim yönündən müqayisəsiz, eləcə də əvəz- olunmaz mövqeyidir.

İstənilən halda ərazi faktorunun öz önəmi, öz unikallığı var. Məs: hər hansı qurum, təşkilat və ya dövlətə uzaq güc mərkəzindən edilən müdaxilə daha yaxın güc mərkəzinin narahatlığına, hətta sərt reaksiyasına səbəb ola bilər. Bu da müdaxiləyə məruz qalan dövlət, qurum və s. yaxın güc mərkəzindən asılı halda olsa belə, daha ağır təcavüz nöqtəsindən yayınması deməkdir. Məs: Amerika qitəsindən hər hansı Ön Asiya dövlətinə edilən məqsədli müdaxilə Avropa dövlətlərinin ciddi narazılığı ilə qarşılaşa bilər.

Söz yox ki, cəmiyyət həddində qohumluq ünsürünü ifadə edən xalq birliyi, kök ortamlığının tarixi, mənəvi və ictimai aspektdə dəyər halını alan incə təbiəti milli özgürlük, milli mən devizinə arxalanıb öz aktuallığını hər zaman ayaqda saxlamaq qüdrətindədir.

Nəticə etibarı ilə dil də humanitar bölmənin (əslində isə bütün elmlərin) özünütəsdiq faktoru kimi digər təmayüllü elmlərin fitri doğmalığını hərtərəfli mənada təmin edən humanitar, ictimai, təbii və hətta texniki hadisədir.

İstənilən bütöv, tam reallıq özlüyündə olduğu kimi hissəsinə görə də möcvudluğunun isbatıdır. Məs: Hər hansı bir elm sahəsi tədqiq olunub araşdırıldıqca daha incə çalarda bir neçə elm sahəsinin əmələ gəlməsini şərtləndirir. Əlbəttə ki, mənbə roluna malik sözügedən elm sahəsi elmilikdən kənarlaşdığı halda onun törəməsi də bir elm kimi təsdiqlənə bilməz. Deməli, varlıq özünü məhz varlıq kimi ifadə etməlidir ki, onun hissəsi də varlıq adlansın (4, 130).. Cəmiyyət də hər hansı sahəsi üzrə deyil, öz inkişaf parametrini bütövlükdə idealizə etməklə tərəqqiyə imza ata bilər. Cəmiyyət üçün inkişaf fakturasının hərtərəfli, həmçinin fundamental həddi təhsil və bunun məqsədyönlü nəticəsi olan elm məfhumunda mərkəzləşir. Məhz sağlam təhsil –tam ixtisaslı kadr, sonuncu isə həqiqətə daha yaxın olan yaşayış tərzidir.

Elə isə təhsil sisteminin aparıcı sektoru kimi tanınan ümumi təhsil pilləsinin müasir proqramına – kurikuluma, eləcə də onun mahiyyət aspektinə nəzər yetirmək mütləqdir.

Söz yox ki, heç bir müasir fakt və ya sfera öz keçmişindən istisna vəziyyətdə təmsil oluna bilmir. Daha çox özündən öncənin müsbət çalarlarından qaynaqlanıb, məqsədə doğru bir az da sürətli sıçrayışa nail olmaq marağı güdür. Təbii ki, kurikulum da sadalanan bu arqumentlərin fəal iştirakçısı olmaqla bərabər, həm də əhəmiyyətli təbliğatçısıdır. Məs: öz

üzərində işləmək potensialı olan müstəsna yanaşma və təcrübəyə malik pedaqoqların zəruri imkanlarını geniş auditoriyaya çıxarmaq məqsədi ilə hazırlanan layihələr buna misaldır. Əslində, kurikulumun özündə ehtiva etdiyi müasirlik prinsipi, ilk növbədə, bu funskiyanın daşıyıcısı kimi kurikulumun birbaşa özünü xarakterizə edir.

Metodiki yanaşmaya gəldikdə isə bilik və bacarıqların səmərəli şəkildə aşılanmasına xidmət edən bu komponent öz fəlsəfi, optimal, kreativ, həm də özəl məzmunlu xarakteri ilə müəllimdən, hətta ənənəvi təhsil prizmasından yanaşsaq belə, məxsusi can yanğısı, doyumsuz öyrətmək eşqi və səriştə tələb edir. Əlbəttə ki, bu fonda təyin olunan vasitələr (tədris vasitələri) dövrün adekvat baxış bucağından asılı olaraq, məzmun və asılı şəkildə forma dəyişikliyinə uğramaq məcburiyyətindədir. Yəni hesab etmək olmaz ki, bir müəllim əgər öz tədris işində komputerdən, elektron lövhədən və d. Texniki avadanlıqlardan istifadə edirsə, o, müasir tədris prosesinin əsas tələblərinə cavab verir. Axı səmimi aspektdən yanaşanda talant, qabillik, unikallıq kimi məxsusi detallar ideal şəraitdə deyil; daha çox bundan məhrum halda üzərinə götürdüyü missiyanın real qəhrəmanı kimi diqqət çəkə bilər. Bir sözlə, metodu metod, vasitəni vasitə, mühiti də lazımi məcrada söz yiyəsi edən beyin faktoru və onun daşıyıcısı olan müəllimdir. Məs: optimal yanaşmaya malik hər bir müəllim üçün bir köynək düyməsi, bir toz dənəciyi hər cür müasir elektron vasitə həddində effekt verə bilər. Səriştəsiz müəllim üçün isə istənilən əlverişli şərait nəticəsizliklə barışmağa məhkumdur(2, 120)..

Müəllimlik etalonu şəxsi nümunəsinə isnad edən pedaqoq yetkin mənada öz mövqeyinin məsul təmsilçisidir. Söhbət təbiət etibarı ilə "Hər kəs insandır və doğması da hər kəsdir", "Yaranışa layiq olan lüzumdursa, lüzumlu olanı yaradıb –yaşatmağa dəyər" kimi ifadələrə oturuşmuş peşəkar xarakterdən gedir. Çünki ixtisas savadı məhz mənəvi amillərin -ətrafına fayda vermək eşqinin, vicdanın və s. təhriki ilə daim elmlənmək, həm də onu paylaşmaq missiyasının sadiq qulluqçusuna çevrilir. Əgər bələdçi adi məişət sözündə də təsvir, musiqi, məzmun və hadisə effektləri yarada bilirsə; onun elektron monitorda mövzu ilə bağlı təsvir nümunələri, musiqi parçası və s. işıqlandırmasına nə ehtiyac var?!

Yaxud da hansı ənənəvi tədris materialı şagirdin özünüqiymətləndirmə missiyasına, tədris işinə, müvafiq fəallığına, tədqiqat roluna qarşı çıxır?! Mənə elə gəlir ki, biz daim peşəkar kadrlardan tələb olunan fədakar yanaşım və bu fonda meydana çıxan yaradıcı təşəbbüs və s. elementlərin məsul daşıyıcısı olmaq vəzifəsindən yayınmaq üçün bəhanə doğuran yersiz müqayisələrə rəvac veririk. Məs: ayrı-ayrı sahələrin müasir və ənənəvi sifətlərini qarşı –qarşıya qoyuruq.

Daim təkmil müdaxilə tələb edən dördbucaqlı (valideyn, uşaq, müəllim və bu konteksdə yaradılan adekvat mühit) təhsil prosesinin aparıcı rolunu qoruyub saxlamaq müasir dövrün vacib tələblərindəndir. Bu xüsusda cəmiyyətin, əsasən, valideyn kontingentinin müasir təlim-tərbiyə işinin, daha doğrusu, sadəcə təlim-tərbiyə işinin əsas parametrləri ilə tanış olması və bu fonda yeni qurulan ailələr üçün peşəkar mütəxəssislər tərəfindən davamlı olaraq, seminarların təşkili əhəmiyyətli şərtlərdəndir. Söz yox ki, seminarların məzmun və məsulluq xisləti dolğun səciyyədə özünü göstərərsə, valideyn tələbəqəsi bu seminarlardan yayınmağa cəhd belə etməyəcək(3, 60).. Ümumiyyətlə, valideyn dördbucaqlı tədris prosesinin bir tərədaşı kimi, xüsusən müəllimin təhriki ilə təlim işinin gedişatında fəal rol oynamalı və öz mövqeyində sadəcə hadisələrin izləyicisi kimi deyil; müsbət stumulverici, dəstəkləyici amili kimi çıxış etməlidir(7, 34)..

Zənnimcə, zamanın dinamik tələbləri təlim-tərbiyə arenasında da sıx, diqqətyönümlü və ardıcıl məsulluğa hesablanmış strategiyaya ehtiyac duyduğu üçün zərurət əsnasında valideyn iclaslarının hər bölmənin sonuna, yəni 4-6 həftə aralığına təsadüf etməsi daha təqdirəlayiqdir.

Məhz peşəkar mütəxəssis (sinif rəhbəri) tərəfindən maarifləndirici yolla valideynin genetik doğmalığının bir vasitə olaraq, təlim-tərbiyə işinin uğuruna yönəldilməsi birbaşa müsbət naticə vəd edən ən ümdə şərtlərdəndir.

Deməli, müəllim bir ictimai xadim kimi öz xarakterik hissiyatı ilə şagirdlərlə paralel, həm də valideyn kütləsini, daha dəqiq ictimai arealda isə cəmiyyəti məhz öz şəxsi nümunəsi fonunda maarifləndirmək öhdəliyinə məsuldur.

Tədris olunan hər bir mövzu üzrə inteqrasiyaya uğramış izahlarla çətinlik dərəcəsi öndə olan çalışmaların aydın, hərtərəfli və optimal şəkildə incələnməsi və bu prosesə, demək olar ki, istənilən dərsin gedişatında maraq kəsb edən rəngarəng müdaxilə metodları ilə sətiraltı formada olsa belə, təkrar qayıdış ümumi çərçivədə səmərəli nəticəni reallaşdıran detallardandır. Ev tapşırıqlarının şagirdlər tərəfindən sərbəst şəkildə yerinə yetirilməsi də yalnız bu yanaşmanın məntiqi nəticəsi kimi reallığı təmsil edə bilər.

Nəhayət, təlim formalarının fərdi iş forması kimi tanınan tipik növü istənilən şagirdi, eləcə də müəllimi və bu iki fonda bütün tədris prosesini məsulluğa kökləməklə, şagirdin real potensialı ilə paralel inkişaf yolu tutan obyektiv nəticənin müəyyənləşməsini birbaşa şəkildə xarakterizə edir. Burada hər hansı vaxt itkisindən yox, məhz onun effektiv şəkildə qabaqlanmasından söhbət gedə bilər. Çünki şagirdin mövcud potensialının üzə çıxarılmasına xidmət edən vaxt tədris prosesi üçün ən səmərəli vaxtdır.

## Ədəbiyyat


1. Mübariz Əmirov. Ümumtəhsil məktəblərində tarixin fəaliteraktiv təlim metodikası. Bakı: 2014
2. Əmrulla Paşayev. Fərrux Rüstəmov. Pedaqogika. Bakı :“Elm və təhsil”, 2010
3. Ə.S.Bayramov, Ə.S.Əlizadə . Psixologiya. Bakı: “Çinar-çap”, 2006
4. Gülər Hüseynova, Kurikulum təliminə praktiki baxış. Bakı: “MM-S”, 2017
5. Malik Aranlı, Ceyhunə Bayramova. Kurikulum metodika və məntiq testləri. Bakı: “Nərgiz -N”, 2016
6. Qadir Fətullayev. Azərbaycan tarixi. Bakı: “CBS”, 2013
7. Qadir Fətullayev. Ümumi tarix. Bakı: “CBS”, 2013


E.Sultanov

They do not want to be watchful

Summary

The article examines the natural aspects of individuals, people, and the different types of societies that are commonly thought of: interpersonal thinking, character unity (friendship); genetics kinship environment; Border and micro-zone unity – district-based relationship (neighbourhood) components are found in the classification of kinship factors. Despite the appropriate logical sequence in intersocietal relations, the unity of thinking character (mainly, social thinking style, religion) is still highlighted as an important kinship factor (because human beings differ primarily with cognitive potential). The details of genetic compatibility (public unity, root, and blood and breast milk compatibility) and neighbourhood (boundary and macro-zone unity - continental, island and relevance of other factors) are featured by their own characteristic significance.

Notwithstanding that the thought, idea and character relevance, which draw attention mostly to the principal functionality, are presented in the form of separate sciences, it is put

forward with a single philological event as well. Along with highlighting the exceptional details in the educational sphere of this or that science, which realizes the progressive character of the society in the axiomatic contrast; accordingly, more attention is paid to creative specialist approach and to its leading role. Thus, a uniform human or society-specific cognizant, a science-based detalization is co-ordinated with the necessity to conclude in definite detail of this fact.

Key words: the aspect of cognate, social thinking, component, typical society, reality, unity, spirituality

Э.Султанов

Они не хотят быть чудесными

Резюме

В статье рассмотрены существующие среди индивидуумов, людей и представленных ими обществ аспекты родства различного типа: единство мышления, характера среди людей (дружба); составлена классификация факторов среды по генетической принадлежности (родство); факторы родства по компонентам кварталов и улиц (соседство). Вопреки гармоничной логической последовательности в межобщественных отношениях, единство мышления и характера (в основном, стиль общественного мышления, религия) все так же освещается как главный, важный момент родства (поскольку человек и общество отличаются, в первую очередь, потенциалом познания). Детали генетической принадлежности (единство народа, совместимость корней, крови и молока) и соседства (единство границ и макрозоны – совместимость континентов, материков, островов и др.) охарактеризованы по своим типичным признакам.

Совместимость мышления, идей, характеров, более всего привлекающая внимание своей главной функцией, наряду с представлением на примере отдельных наук, выдвинута как единое филологическое событие.

Касаясь исключительных тонкостей в образовательной сфере той или иной науки, реализующей прогрессивный облик общества в аксиоматическом оттенке, был сделан соответствующий, а также творческий подход специалиста и была акцентирована его ведущая роль. Таким образом, обзор, исходящий из полностью сознательного, научного характера, принадлежащий целостному человеку или обществу, сопоставляется с необходимостью завершения в определенной детали этого факта.

**Ключевые слова:** аспект родства, общественное мышление, компонент, типичное общество, действительность, единство, нравственность.

Redaksiyaya daxil olma tarixi: 21.06.2019

Çapa qəbul olunma tarixi: 05.08.2019

Filologiya elmləri doktoru, professor Rüfət Rüstəmov tərəfindən çapa tövsiyə olunmuşdur.